**Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 1855 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 4, maddə 323, 12, maddə 1034; 2007, 11, maddə 1105, 12, maddə 1246; 2009, 7, maddə 533, 8, maddə 627, 10, maddə 773, 12, maddələr 983, 988; 2010, 2, maddə 83, 4, maddə 292, 11, maddə 966; 2011, 1, maddə 18, 2, maddə 85, 4, maddə 281, 6, maddə 497, 10, maddə 894, 11, maddə 993; 2012, 10, maddə 950; 2014, 6, maddə 627, 7, maddə 820, 9, maddə 1029; 2016, 1, maddə 77; 2017, 2, maddə 184, 10, maddə 1784; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 115 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”nin 9.12-2-ci yarımbəndinə “qaydalarının” sözündən sonra “, həmçinin yoxlayıcı orqan (yoxlayıcı) tərəfindən (onlara münasibətdə yuxarı dövlət orqanının olmadığı hallarda) “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda yoxlamalarla əlaqədar müəyyən edilmiş digər tələblərin və prosedurların” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyul 2018-ci il
194